# IDEOLOGICAL AND EMOTIONAL PRESENTATION OF THE SECOND KARABAKH WAR IN THE FILM “LIFE SEEMS TO BE BEAUTIFUL”

**Babek Abbaszadeh**[1]

**UDC:** 791.43−222(479.24):94(479.24)“2020”
**LBC:** 85.374(5Aze):63.3(5Aze)6
**HoS:** 157
**doi:** 10.33864/2790-0037.2026.v7.i2.68-79

**Keywords:**

“Life Seems to Be Beautiful”,
Vagif Mustafayev,
Cinema of Azerbaijan,
Narrative film,
Azerbaijanfilm Film Studio,
War film,
Tragicomedy

**Subject area:**

Humanitarian Sciences

**Research field:**

Cinematology

## ABSTRACT

The article discusses the full-length film Life Seems to Be Beautiful by People’s Artist of Azerbaijan, film director Vagif Mustafayev, one of the few cinematic artistic examples shot on the theme of the Second Karabakh War, which was produced in 2022 at the “Azerbaijanfilm” film studio. Vagif Mustafayev is a film director who has a unique place and legacy in the development of comedy and tragicomedy genres in Azerbaijani national cinema. The fact that the film, which is the director’s latest screen work, was received with conflicting opinions by society and that it has not been thoroughly analyzed in any serious source to date has necessitated the writing of an independent research paper in terms of revealing its artistic qualities and reading its message. The article turns the film into a subject of analysis and notes what role it played for Azerbaijan in the ideological and emotional presentation of the Second Karabakh War. The director’s presentation of the war in a different interpretation and from a unique perspective plays a special role in the originality of the film. The article examines the artistic depiction of the sickly-minded, evil Armenian character on screen, and the degree of objectivity of the ideas, dialogues, and episodes expressed in the film is determined by referring to the works of world and Armenian authors. The artistic features of the film, black humor, absurd and surreal tendencies, and their correspondence with other films in the director's work are analyzed from an analytical perspective.

[1] Head of Department, Azerbaijan State Film Fund; Baku, Azerbaijan
E-mail: babek-tt@mail.ru
https://orcid.org/0009-0004-8125-106X
**To cite this article:** Abbaszadeh, B. [2026]. Ideological and Emotional Presentation of the Second Karabakh War in the Film “Life seems to be Beautiful”. *History of Science journal*, *7*(2), pp.68-79.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i2.68-79

***Article history:***
*Received: 15.02.2026*
*Revised: 16.03.2026*
*Accepted: 01.06.2026*
*Published: 15.06.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# "HƏYAT, DEYƏSƏN, GÖZƏLDİR" FİLMİNDƏ İKİNCİ QARABAĞ MÜHARİBƏSİNİN İDEOLOJİ VƏ EMOSİONAL TƏQDİMATI

**Babək Abbaszadə**[1]

**UOT:** 791.43−222(479.24):94(479.24)"2020"
**KBT:** 85.374(5Aze):63.3(5Aze)6
**HoS:** 157
**doi:** 10.33864/2790-0037.2026.v7.i2.68-79

**Açar sözlər:**

"Həyat, deyəsən, gözəldir",
Vaqif Mustafayev,
Azərbaycan kinematoqrafiyası,
Bədii film,
"Azərbaycanfilm" kinostudiyası,
Müharibə filmi,
Faciəvi komediya

**Sahə:**

Humanitar elmlər

**Tədqiqat sahəsi:**

Kinematologiya

## ANNOTASİYA

Məqalədə İkinci Qarabağ müharibəsi mövzusunda çəkilmiş azsaylı kinematoqrafik bədii nümunələrdən olan Xalq artisti, kinorejissor Vaqif Mustafayevin 2022-ci ildə "Azərbaycanfilm" kinostudiyasında ərsəyə gətirdiyi "Həyat, deyəsən, gözəldir" tammetrajlı filmindən bəhs olunur. Vaqif Mustafayev Azərbaycan milli kinosunda komediya və faciəvi komediya janrlarının inkişafında özünəməxsus yeri və dəst-xətti olan kinorejissordur. Haqqında bəhs olunan və rejissorun hələlik sonuncu ekran əsəri filmin cəmiyyət tərəfindən təzadlı fikirlərlə qəbul olunması, bugünədək demək olar ki, heç bir ciddi istinad verilə biləcək mənbədə əsaslı təhlil olunmaması onun bədii keyfiyyətlərinin açılması, mesajının oxunması baxımından hər hansı müstəqil tədqiqat işinin yazılmasını zəruri etmişdir. Məqalədə film təhlil predmetinə çevrilərək, onun İkinci Qarabağ müharibəsinin ideoloji və emosional təqdimatında Azərbaycan üçün hansı rolu oynadığı qeyd olunur. Rejissorun müharibəni fərqli yozumda, özünəməxsus baxış bucağında təqdim etməsi filmin orijinallığında xüsusi rol oynayır. Məqalədə xəstə təfəkkürlü xəbis erməni xislətinin bədii inikasının ekranda yaradılması fonunda dünya və erməni müəlliflərinin əsərlərinə istinad edilərək, filmdə səslənən fikirlərin, dialoq və epizodların obyektivlik dərəcəsi müəyyənləşdirilir. Filmdəki bədii xüsusiyyətlər, qara yumor, absurd və sürreal meyillər, onların rejissorun yaradıcılığındakı digər filmlərlə səsləşmələri analitik mövqedən işlənilmişdir.

[1] Şöbə müdiri, Azərbaycan Dövlət Film Fondunun; Bakı, Azərbaycan
E-mail: babek-tt@mail.ru
https://orcid.org/0009-0004-8125-106X
**Məqaləyə istinad:** Abbaszadə, B. [2026]. "Həyat, deyəsən, gözəldir" Filmində İkinci Qarabağ Müharibəsinin İdeoloji və Emosional Təqdimatı. *History of Science jurnalı*, *7*(2), səh.68-79.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i2.68-79

***Məqalənin tarixçəsi:***
*Daxil olub: 15.02.2026*
*Yenidən baxılıb: 16.03.2026*
*Təsdiqlənib: 01.06.2026*
*Dərc olunub: 15.06.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# ИДЕОЛОГИЧЕСКОЕ И ЭМОЦИОНАЛЬНОЕ ОСВЕЩЕНИЕ ВТОРОЙ КАРАБАХСКОЙ ВОЙНЫ В ФИЛЬМЕ « ЖИЗНЬ КАК БУДТО ХОРОША»

**Бабек Аббасзаде**[1]

**УДК:** 791.43−222(479.24):94(479.24)“2020”
**ББК:** 85.374(5Азе):63.3(5Азе)6
**HoS:** 157
**doi:** 10.33864/2790-0037.2026.v7.i2.68-79

**Ключевые слова:**

«Жизнь как будто хороша», Вагиф Мустафаев, Кинематограф Азербайджана, Художественный фильм, Киностудия «Азербайджанфильм», Военный фильм, Трагикомедия

**Область исследования:**

Гуманитарные науки

**Научная область:**

Кинематология

## АННОТАЦИЯ

В статье рассматривается полнометражный фильм народного артиста, режиссера Вагифа Мустафаева, «Жизнь как будто хороша», один из немногих кинематографических образцов, снятых на тему Второй Карабахской войны, который был создан в 2022 году на киностудии «Азербайджанфильм». Вагиф Мустафаев – режиссер, занимающий уникальное место и оставивший значительный след в развитии комедийного и трагикомедийного жанров в азербайджанском национальном кинематографе. Тот факт, что, являющийся последней работой режиссера, фильм был встречен обществом неоднозначно и до сих пор не был тщательно проанализирован ни в одном серьезном источнике, обусловил необходимость написания независимой исследовательской работы с целью выявления его художественных качеств и прочтения его смысла. В статье фильм становится предметом анализа, и отмечается его роль для Азербайджана в идеологическом и эмоциональном представлении Второй Карабахской войны. Особую роль в оригинальности фильма играет интерпретация войны режиссером в уникальной перспективе. В статье рассматривается художественное изображение болезненного, злого армянского персонажа на экране, а степень объективности идей, диалогов и эпизодов, выраженных в фильме, определяется путем обращения к произведениям мировых и армянских авторов. Художественные особенности фильма, черный юмор, абсурдные и сюрреалистические тенденции, а также их соответствие другим фильмам в творчестве режиссера рассматриваются с аналитической точки зрения.

[1] Заведующий отделом, Государственный кинофонд Азербайджана; Баку, Азербайджан
E-mail: babek-tt@mail.ru
https://orcid.org/0009-0004-8125-106X
**Цитировать статью:** Аббасзаде, Б. [2026]. Идеологическое и эмоциональное освещение Второй Карабахской войны в фильме « Жизнь как будто хороша». *Журнал History of Science, 7*(2), с.68-79.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i2.68-79

***История статьи:***
*Поступила: 15.02.2026*
*Переработана: 16.03.2026*
*Принята: 01.06.2026*
*Опубликована: 15.06.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Hələ ötən əsrdə görkəmli teatr rejissoru, pedaqoq Mehdi Məmmədov 1940-cı illər Azərbaycan teatr mühitini təhlil edərkən müharibə mövzusunun günün çağırışlarına uyğun səhnəyə gətirilməsi zərurətinə diqqət çəkərək yazırdı ki, bu ehtiyacı ilk növbədə bilavasitə Vətən müharibəsinə həsr edilmiş pyeslər ödəyə bilər. Sonra isə əlavə edir: "Onlar isə hələ yazılmamışdı. Onların hətta yaxın zamanda yazılmağı üçün də müəyyən vaxt lazım idi..." [Mammadov, 1983, s.36].

M.Məmmədovun fikirlərində Böyük Vətən müharibəsi mövzusunda açıq ifadə olunan problem Birinci Qarabağ müharibəsi dönəmində sponsor maliyyəsi hesabına reallaşdırılmış bir neçə film sayəsində nəzərə çarpmasa da, İkinci Qarabağ müharibəsi dövründə yenidən hiss olundu. 2022-ci ildə yerli mediada "Vətən müharibəsi ilə bağlı filmlər niyə çəkilmir?", "Möhtəşəm zəfərimizdən artıq 2 il keçib, bütün bunlar niyə ekranda əksini tapmır?" sualları gündəmə gələndə, sənət cameəsindən oxşar "tarixin həzm olunması üçün üzərindən zaman keçməlidir" cavabları eşidiləndə, yenidənqurma aparılmamış, müharibənin canlı izləri, səngərləri, dağıntıları qalan real məkanlarda vaxt itirmədən film çəkməyin mümkünlüyü barədə fərdi jurnalist sualları meydana çıxanda kinorejissor Vaqif Mustafayev artıq bu fikir mübadilələrindən bir addım öndə dayanmışdı. 1993-cü ildə ssenarisini yazdığı "Fəryad" filminin (rej. Ceyhun Mirzəyev) modeli və təhkiyə metodu əsasında yaranmış, layihə formasında ilkin adı da əvvəlcə elə "Fəryad-2" olan "Həyat, deyəsən, gözəldir" filmi məhz həmin günlərdə ərsəyə gəldi.

## 2.Baxış bucağı

İntellektual yumor və sarkazm və üzərində qurulmuş bütün başqa filmləri kimi bu filmdə də Vaqif Mustafayevin mövzuya standart qəliblərdən kənar münasibəti hiss olunur və müəllifin İkinci Qarabağ müharibəsi mövzusuna bu fərqli baxışı, daha orijinal materialın ərsəyə gəlməsinə imkan verir. Ağır mövzuya insanlıq və sevgi prizmasından yanaşılması ekranda onu olduqca fərqli və özünəməxsus edir.

Müəllif həqiqəti belə bir yeni bucaqdan izləməyi təklif edir: Azərbaycan mərmisinin erməni əsgərinin beynini silkələyərək həqiqəti dilə gətirməyə vadar etməsi əsas süjet xəttini hərəkətə gətirən düyün nöqtəsi kimi üzə çıxır. Hadisələrin sonrakı gedişatı faciəvi komizm, qara yumor, absurd, ironizm və digər təmayüllərlə müşayiət olunur.

Ssenarinin ekrana gətirilməsinə hesablanmış başlanğıc nöqtəsi çəkiliş qrupunun bir-birinin izi ilə yeridiyi minalanmış ərazilərdən başlamışdı [Aslanli, 2022, s.91]. Rejissorun bu prinsipial seçimi nəticəsində nəinki Xocavəndin Hadrut qəsəbəsindəki müharibə dövrünün real erməni səngərləri canlı natura kimi kino tariximizdə öz əksini tapdı, eyni zamanda həmin epizodda çəkilən aktyorlar özlərini yenicə başa çatmış müharibənin ab-havası içində hiss etdilər, ifa tərzlərini şərti reallıq çərçivəsində deyil, həqiqi natura mühitində gerçəkləşdirməyə nail oldular. Vaxtilə görkəmli sovet rejissoru, kinonun səssiz dövründən başlayaraq, ömrünü 65 ilini bu sahəyə sərf etmiş Yuli Rayzman öz təcrübəsi əsasında bu mövzuya toxunaraq yazırdı: "Əgər rejissor mühiti kifayət qədər dəqiqliklə hazırlamayıbsa, onu canlı, həqiqi və inandırıcı edə bilməyibsə, o zaman aktyorun özünü doğru-düzgün hiss etməyinə, beləliklə də onun işinin yüksək nəticəsinə ümid bağlaya bilməz" [Raizman, 1959, s.110]. Gətirilən nümunədəki kimi məkanın yaradıcı heyətə və aktyorlara hakimlik hissini rəhbər tutan rejissor Vaqif Mustafayev bütün audiovizual elementlərin vahid təcəssümü ilə ekranda real müharibə epizodu yaratmağa nail olur. Batal səhnələr film üçün xüsusi hazırlanacaq alternativ səngərlərdən imtina olunaraq, ümumi dörd çəkiliş günü ərzində peşəkarlıqla vizuallaşdırılır [Aslanli, 2022, s.91].

Əsərin bünövrəsinin sosial və dövlət sifarişinin uyğunluğundan irəli gəldiyini dəfələrlə çıxışlarında vurğulayan müəllif Qarabağ müharibəsi mövzusuna müraciət edən nə birinci, nə də sonuncu rejissordur. Ümumiyyətlə, bədii, sənədli və animasiya olmaqla, Azərbaycan

kinosu tarixində Qarabağ münaqişəsi ilə bağlı çəkilən müxtəlif filmlər var. Diqqəti bədii filmlər üzərinə cəmləşdirsək, onların arasında insan taleyini ön plana çəkməklə fərdi həyat hekayəsi nümayiş etdirən müxtəlif yaradıcı səviyyələrdə ərsəyə gətirilmiş filmlərin olduğunu görə bilərik. Lakin fərqli sənət meylləri bəlkə də zərurət olan yerli və xarici auditoriyaya hesablanmış başqa filmlər də meydana gətirdi. Yaxın tarixi dövr göstərdi ki, Qarabağ mövzusunda “düşmən pisdir, biz yaxşı” bucağından təqdim olunan bədii ekran əsərləri birtərəfli yanaşma və dramaturji çatışmazlıqları ilə nəinki dünya tamaşaçısının, hətta bəzən yerli auditoriyanı da qane etmir. Azərbaycan torpaqlarının işğal altında olduğu dövrdə dünyəvi yanaşma meyarlarının əsas götürülmə cəhdləri ilə yaradılan bəzi filmlərdə isə uğurlu sənət tapıntıları müşahidə olunsa da, torpağı düşmən tapdağında olan izləyicidə həmin əsərlərin ideyasında yatan sülhə çağırış meylləri birmənalı reaksiya yaratmadı.




Bu mənada Vaqif Mustafayev “Həyat, deyəsən, gözəldir” filmində Qarabağ müharibəsinin təqdimatı üçün elə bir nöqtə seçib ki, həm Azərbaycan, həm Ermənistan, həm də münaqişə tərəflərindən kənar üçüncü ölkələr, xalqlar tragikomik prizmadan bu problemlə tanış ola, erməni məfkurəsinin cılızlığına gülə, onun mahiyyətini araşdırmağa istiqamətlənə və bəşəri sonluqdan aydın görünən dünyəvi Azərbaycan düşüncəsinə bələd ola bilərlər. Çünki V. Mustafayev yumor və sarkazmdan qidalanan fərdi düşüncəsini ekranda obyektiv həqiqətlə üzvi bağlılıq kontekstində təqdim edir.

Yuxarıda qeyd olunan əhəmiyyətli nöqtəni təşkil etmiş Azərbaycan həqiqətlərini danışan erməni əsgəri, burada vahid süjetin hərəkətverici qüvvəsi kimi ortaya çıxır. Onun düşüncə çevrilişinin Azərbaycan mərmisinin təsirindən qaynaqlanması əks baxış bucağının məntiqi əsaslandırmasıdır. Bu amil əvvəlcə əsgərin özünə belə anlaşılmaz qalsa da, sonradan həqiqətə söykənən həmin çevriliş fikir doğmalığı hiss etdiyi insanlar əhatəsində daha da möhkəmlənir. Azərbaycanda dindirmə həyata keçirən humanist zabitlər və fenomenal dəyişmə üzərində baş sındıran psixiatrlar arasında keçirdiyi günlər Vaçik Manukyanın (aktyor Georgi Celiya) ilkin məntiqi çevrilişini mənəvi sağalmayadək apara bilir və reabilitasiya prosesi yekunda katarsislə nəticələnir.

Bütün komik situasiyalara rəğmən, Azərbaycan zabitinin Vaçiki qardaşının zərbəsindən müdafiə etməsi, psixiatrların onu ölümdən qurtarması, hər addımbaşı qayğı və anlayışla əhatə etməsi sıravi erməni əsgərinin mənsub olduğu qara fikirli cəmiyyətlə həqiqi insani münasibətlər arasında mahiyyət fərqini dərk etməsinə gətirib çıxarır. Bu insanpərvərlik dalğasının zahiri göstərmə əlaməti olmaması, səmimiyyətə əsaslanması isə onu vəhşi millətçilərə təslim etmək istəməyən Psixi Dəyişikliklər Mərkəzi rəhbərinin polkovnikə təklifində bütün məğzi ilə açılır.

## 3.Obyektivlik dərəcəsi

Filmin süjet xətti boyu aramsız istinad edilən erməni xisləti mövzusu ilk baxışdan zamana, məkana və lokal ictimai-siyasi düşüncəyə hesablanmış konyuktura təsiri bağışlasa da, onun mütləq həqiqətə əsaslandığını kifayət qədər ciddi yaradıcılıq yoluna malik rejissorun ötən illər ərzində bir neçə dəfə bu mövzuya müraciət etməsi də müəyyən qədər sübut edir. Buna baxmayaraq, məqamları yad coğrafiyada yaşayan xalqların spesifik xüsusiyyətlərini, psixoloji cəhətlərini, düşüncə tərzlərini araşdırma təşəbbüsündən uzaq, laqeyd, hətta kosmopolit dünya tamaşaçısına daha əsaslı şərh etmək üçün onların özünə yaxın örnəklər gətirmək yerinə düşər.

Təsadüfi deyil ki, əsrlərlə xalqımızın görə-görə gəldiyi erməni millətinə xas mənəviyyatsız keyfiyyətləri müəyyən xarici mənbələrlə təmasa keçərkən də müşahidə etmək olar. Dünyaşöhrətli yazıçı-distopist Corc Oruell öz əsərində yaratdığı əliəyri dalandar obrazının timsalında ermənilərin oğru xislətini aşkar izhar edir və fikrini "Yəhudiyə etibar edəcəyinə ilana etibar et, yunana etibar edəcəyinə yəhudiyə etibar et, amma erməniyə heç vaxt etibar etmə" cümləsi ilə formalaşdırır [Orwell, 2023, s.74]. Oruelldən gələn yanaşmanı "torpaq oğrusu" konteksinə keçirsək, əlində "Böyük Ermənistan qlobusu" tutan filmin qəhrəmanı Kotikin (aktyor Ş. Nəsirov) qeyri-ciddi sadalamalarının, "mədəniyyət oğrusu" konteksinə keçirsək isə Rantikin (aktyor T. Göyçayev) erməniləşdirilmiş "Kreyser" sonatasının öz yerini tutduğunu sezmək olar.

Digər epizodlarda erməni qadınının "düşmənimiz qulağının dibini görəndə Qarabağı görər" sözləri ilə mahnı oxuyub "milli sayıqlamalar"ı doğma övladının canından da ali tutması, Xaçikin sərsəm iddialar naminə doğma qardaşının həyatına gah tibbi, gah zorakı yolla qəsd etmək istəməsi bu millətin qeyri-insani xislətini bir daha çılpaqlığı ilə ortaya qoyur.

Kinoşünas Əlisəftər Hüseynov bu filmi təhlil etdiyi məqalədə ermənilərin anormal düşüncə tərzini müəllif uydurmasından uzaq – real faktlara, sənədlərə əsaslanan həqiqət kimi dəyərləndirir [Huseynov, 2022, s.12]. Əlbəttə, mövzu ilə bağlı saysız-hesabsız Azərbaycan mənbələrinə, ermənişünas alimlərin, tarixçilərin tədqiqat işlərinə, klassik yazıçılarımızın əsərlərinə də istinad etmək olar. Lakin ağlasığmaz xislət yiyəsi olan millətin öz ziyalısından bir neçə sitat gətirmək bu məqamda obyektivlik tərəzisini sabit saxlamaq baxımından zəruridir: "Həqiqi qurtuluş daxildən başlanmalıdır, çünki biz daxilən xəstəyik" [Tumanyan, 1977, s.201]. Erməni ədibi Ovanes Tumanyanın (1869-1923) bu fikri "Həyat, deyəsən, gözəldir" filmində yer almış bir çox epizodlarda, həmçinin Arşalyusun qürurla bəyan etdiyi "Bəli, biz işğalçıyıq; şəxsən mən işğalçıyam" məntiqində başlıca təzahürünü tapır. Həmçinin, erməni müəllifin "Bizim öz xüsusiyyətlərimiz var. Onilliklərdir ki, burada təhqir, böhtan, yalan, bədxahlıq, yaltaqlıq təmsil olunur" fikrindəki [Tumanyan, 1977, s.200] bu millətə xas sadalamaların hər birinə "Həyat, deyəsən, gözəldir" filmində rast gəlmək olar. Belə ki, birbaşa və ya sətiraltı dərəcədə Xaçikin "qardaşının anasını" söydüyü epizodu təhqirə, onu yuxuda ikən öldürmək istədiyi səhnəni bədhaxlığa, Mamikonun dayısına ünvanladığı şantajı böhtana, Martiros və Kolumb haqqında sayıqlamanın yer aldığı monoloqu yalana, Mkrtıçın tabut başında qəfil nitqini yaltaqlığa aid etmək olar. Filmin sonlarına doğru Arşalyusun qucağında tutduğu körpə Vaçikə nəsihəti isə eyni müəllifin üzərindən bir əsrdən də artıq vaxt keçmiş "Bu cür icma alicənab insanlar, mehriban qəlblər və uca ruhlar dünyaya gətirməyə qadir deyil" tezisinə [Tumanyan, 1977, s.201] uğurlu qarşılıq olacaq səsləşmədir. Gətirilən bu kimi paralellərlə rejissor V.Mustafayevin millətçi yönümlü subyektivliyə yol verməsi haqqında gələcək iddiaların əsassız olduğunu indidən ortaya qoymaq olar.

**4.Aktyor ifası**

Vaqif Mustafayevin filmlərinin qəhrəmanlarını canlandıran aktyorlar, adətən, ifa tərzlərini vahid rejissor qəlibi çərçivəsində qurmağa məcburdurlar. Rejissor-aktyor münasibətlərində dominantın məhz birinci tərəf olması aktyor ifasının potensial imkanlarını V.Mustafayev üslubu çərçivəsində məhdudlaşdırır, bununla da həmin aktyorların peşəsi çərçivəsində müstəqil təhlil predmetinə çevrilməsinə müəyyən dərəcədə mane olur. Bununla belə, "Həyat, deyəsən, gözəldir" filmində aktyorların bir neçəsinin xüsusən parlaq ifa ilə diqqət çəkdiyini qeyd etməmək olmaz.

Filmin əsas erməni qəhrəmanları ilk baxışdan ikinci və üçüncü plan surətləri kimi karikatur, subkeytiv görünsələr də, dərindən yanaşılarkən onların şəxsi gerçəkliyinin dramaturji baxımdan həllini tapdığı müşahidə olunur. Məsələn, yalnız ekspozisiya

səviyyəsində təqdim olunan xəstə erməni təfəkkürünün daşıyıcılarından fərqli olaraq, onların sırasında yer alsa da, süjetin sonrakı gedişatının əsas antoqonisti kimi üzə çıxan Xaçik (aktyor Dmitri Samxaradze) yekrəng və birmənalı deyil. Onun fərdi həqiqəti və ailəvi reallıqda, öz yaşam mühitində müsbət keyfiyyəti, xarakterik cizgiləri ad günü epizodunda yerini tutur. Bu epizod sayəsində sonradan Xaçikin uşaqlıqdan beyninə yeridilən yalana aludəliyin, əvvəlcədən onun şüurunda mövcud olan doğmalıq mənsubiyyətini üstələdiyini daha real dərk etmək mümkün olur. Xaçik obrazının bilavasitə aktyor olmayan şəxs tərəfindən canlandırılması ekranın bu tayından bəlli olmur və həmin məqam rejissorun rol ifaçısı ilə apardığı əsaslı işin göstəricisidir.

Qeyd etmək lazımdır ki, eyni obraz daxilində həm qatı işğalçı, həm də həqiqətpərəst sülhsevər kimi ikili xarakter olan Vaçik sanki aktyor Georgi Celiyanın boyuna biçilib. Aktrisa Nino Qomarteli ifa etdiyi Arşalyus obrazının faciəsini daxili yaşantı ilə dərindən hiss edir, övladının yad mühitdə, düşmən xəstəxanasında, məxsus olduğu cəmiyyətin baxışlarını inkar etməsi dəhşətini bütün varlığı ilə içindən keçirə bilir.

**5.İmprovizə məqamları**

Bu yaxınlarda rus əsilli tanınmış kinoşünas A. Dolin müəllifi olduğu proqramlarının birində “Müəyyən süjetə malik bədii filmləri improvizasiya vasitəsilə necə çəkmək olar? Bu mümkün deyil. Vonq Karvay bunu bacarır” fikrini səsləndirdi [Dolin, 2025]. Qeyd etmək lazımdır ki, mülahizənin “mümkün deyil” şəklində qəlibləşdirilməsi elə ilk baxışdan mübahisə doğurur. Əslində haqqında bəhs olunan sənət ehkamlarından kənara çıxmış Jan-Lük Qodar, Terrens Malik, Con Kassavetis kimi bir çox dünya kinorejissorunun adını sadalamaq olar. Vaqif Mustafayevin özünə gəldikdə isə o, əhəmiyyətli olduğu təqdirdə prosesin gedişatında müəyyən dəyişiklikləri arzuolunan hesab edir [Mustafayev, 2018, s.58]. Yaradıcılığını araşdıran istənilən şəxs də onun öz filmlərində birmənalı olaraq, ssenarini son hədd kimi qəbul etmədiyinə, onu çəkiliş meydançasında mütləq şəkildə improvizələrlə zənginləşdirdiyinə, yeni mizan və replikalarla epizodların təsir qüvvəsini artırdığına şahid ola bilər. Bu mənada “Həyat, deyəsən, gözəldir” filmi də istisna deyil. Yuxarıda Arşalyus obrazından söhbət düşmüşkən, V.Mustafayevin öz filmindən sitatla Dolinin dediyi “o əjdahadan bizdə də olduğunu” aktrisa N.Qomartelinin fikirlərindən duymaq olar: “Oğullarımı cəbhəyə yola saldığım səhnəni çəkirdik. Səhər çəkiliş məkanına gələndə Vaqif mənə: “Nino, siz oxumalısınız”, - dedi. Təəccübləndim ki, necə yəni oxumalıyam? Axı bu, ssenaridə yoxdur! İnadkarlıqla dedi ki, bacararsan. Mənsə ağlamağa başladım. Necə ifa etdiyimi bilmirəm, amma sonra kadra baxanda anladım ki, bu, möhtəşəm səhnə idi” [Mammadov & Heyderov, 2023].

**6.“Fəryad”la səsləşmə**

Yazının əvvəlində filmin “Fəryad” modeli üzərində qurulduğunun vurğulanması çox güman ki, oxucu diqqətindən yayınmadı. Filmi izləyən ayrı-ayrı tamaşaçı qrupları az qala milli qan yaddaşının tərkib hissəsi kimi ürəklərə və şüurlara hopmuş “Fəryad” filminin bu gün də davam edən təsiri altında yeni layihənin nəyə görə “Fəryad-2” adlandırıldığından gileylənəndə cəmiyyət içində bu etirazın cavabı haqqında əsaslı düşüncələr olmadı. Yalnız rejissorun “Birinci “Fəryad”da azərbaycanlı İsmayıl ermənilərə əsir düşür. İkinci “Fəryad”da isə iki erməni qardaş azərbaycanlılara əsir düşür” fikrindən istinad almaq kifayət idi ki, sual doğuran məqama zahiri də olsa aydınlıq gəlsin.

Bu baxımdan filmlərin intertekstuallığından gətiriləcək nümunələrin bir qisminin sadalanması – yenicə qələbənin dadını duyan, ekşn janrında döyüş səhnələri ilə zəngin, bəlkə də pafoslu müharibə filmi gözləyən, bu və digər məqamların “Fəryad” üzərində qurulmasını gözdən qaçıraraq müəllifi qınaq obyektinə çevirən tamaşaçılar üçün iki ekran əsəri arasında interpretativ məqamları, dramaturji materialın elementlərini aydınlaşdırmaq baxımından əhəmiyyətli görünür. Məsələn, “Fəryad” filmində İsmayılın çəkməsinin

Qriqorun ayağını sıxması “Həyat, deyəsən, gözəldir” filmində Zorikin əyninə dar gələn pencəklə gerçəkləşdirilir. Başqasının malına iddianın yolverilməz olduğunu özündə ehtiva edən bu iki epizod hər şeyin hər kəsə uyğun olmadığını, hər bir insanın öz ölçüsünün, yeri və missiyasının olduğunu çatdırır və Azərbaycan təfəkküründən irəli gələn “başqasının ayaqqabısını geyə bilsən də, yerişini yeriyə bilməzsən” məsəlinin bədii həlli kimi üzə çıxır. Həkimlə bağlı epizodlarda Rusiyadan əsirlərə baş çəkməyə gəlmiş professorun hətta zahiri görünüşündə də müəyyən bənzərlik müşahidə olunur. “Fəryad”da Xorenin “Qarabağ – dərdim mənim!” hayqırtısı burada Kotikin “Ruzanna, sən mənim dərdimsən!” fəğanı ilə üst-üstə düşür. Ermənilərin erkən yaşdan öz övladlarına türklərə qarşı nifrət aşıladığına dair epizodlar həm Xaçaturyansın, həm də Arşalyusun qucaqlarında tutduğu uşaqlara ünvanladıqları, beyinlərinə yeritdikləri çirkabda əksini tapır. Yəqin ki, eyniadlı qəhrəmanlar sırasında həm azərbaycanlı əsir İsmayılın xilas etdiyi erməni uşağının, həm də Arşalyusa məktub çatdıran yeniyetmənin adının Mamikon olması da təsadüfi deyil. Hər iki filmdə əsirlikdə olan şəxs – biri huşunu itirib xəyali aləmə düşərək, digəri venasına sakitləşdirici vurularaq anasını səsləyir və şəxsi xatirəyə əsaslanan konkret fləşbəkə keçid edilir. Hər iki filmin sonu əsirlərin dəyişilməsi ilə yekunlaşır. Lakin artıq “Həyat, deyəsən, gözəldir” filmində Azərbaycan birmənalı qalibdir. “Fəryad”dan fərqli olaraq, burada əks tərəfdə azərbaycanlı əsir yoxdur!

Müqayisə siyahısını davam etdirmək, hətta müəllifin 1997-ci ildə bu mövzuda çəkdiyi “Hər şey yaxşılığa doğru” filmi ilə də paralellər aparmaq mümkündür. Göründüyü kimi, Vaqif Mustafayevin qələmindən çıxan hər iki əsərin səsləşməsində müəyyən qanunauyğunluq tapmaq olar və bəlkə də bu, təbii haldır. C.Mirzəyevin filmində bütün bunlar hər iki dövrün reallığı ilə – işğal, V.Mustafayevin filmində isə – qələbə amilinə hesablanaraq işlənilib.

Yeri gəlmişkən, “Həyat, deyəsən, gözəldir” filminin adı da həmin modelin tərkib hissəsidir. Yeni ekran əsərində artıq fəryada, ah-naləyə, iniltiyə yer yoxdur, əksinə, həyatın gözəlliyinə eyham var. Rejissor özü isə filmin adını belə şərh edir: “Həyat ümumi gözəl ola bilməz. Həyatda çətinlik də olur. Royalın dilləri ağ-qaradır və bu dillərlə gözəl melodiyalar ifa olunur. Ona görə də həyat hərdən adamı qorxudur, hərdən də düşünürsən ki, deyəsən, gözəldir. Həssas adamlar belə düşünə bilər. Xoşbəxtlik ani anlardan ibarət olduğu üçün həyat həmişə gözəl ola bilməz. Ona görə də həyat, deyəsən, gözəldir” [Azeri, 2023, s.7]. Müəllif fikrinə bir mətləbi də əlavə etsək, demək olar ki, “Həyat gözəldir” ifadəsini vergüllərlə özündən aralamış “deyəsən” kəlməsi burada Ermənistan-Azərbaycan münaqişəsinin konfliktin səbəbkarı olan tərəfin xəbis keyfiyyətlərindən qaynaqlanan etibarsız tərəf olmasına, nə dərəcədə sülh istəməsinin əbədi sual doğurduğuna incə eyham kimi özünü göstərir.

## 7.Redaktordan xalilik

“Həyat, deyəsən, gözəldir” filmi tələsik sifarişin peşəkar icrası olduğundan filmin tənqidi aspektdən dəyərləndirilməsi zamanı bir sıra mübahisəli məqamları da müşahidə etmək olar. Epizodların birində rejissorun həmişə sərrast dialoq ustalığı incə nöqtədə bir qədər axsayır. Həkimlər qarşısında əyləşmiş Xaçik onların suallarına cavab olaraq 1995-ci ildə Stepanakertdə doğulduğunu deyir. Əslində bu kəlmə hüquqi reallıqla hesablaşmayan [Mammadov, 2011, s.170] millətçi erməni təfəkkürünü ifadə etdiyindən həmin məqamda məntiqli səslənsə də, dialoqun sonrakı gedişatında azərbaycanlının cavabı yalnız şəhərin sovet dövründə belə adlandığına sətiraltı işarə edir və səthi yanaşılmış bu cavab yetərincə tutarlı alınmayaraq natamamlıq yaradır. Xaçikin anadan olduğu tarix kimi verilən 1995-ci ildə Azərbaycan artıq Sovet İttifaqı tərkibində deyildi və replikaya cavab labüdlüyünü ifadə edən Qaraşov obrazı (aktyor T.Yüzbəyov) hansısa yolla buna işarə verə bilərdi. Yaxud baş həkim adəti üzrə eyni soyuqqanlılıqla “*anadan olduğunuz tarixlə şəhərin bu adı heç cür bir*

*araya sığmır*" şərti cümləsini və ya müəllifin daha tutarlı izhar edəcəyi heç bir şübhə doğurmayan buna bənzər eyhamı vurğulaması mükalimə natamamlığını aradan qaldıra bilərdi. Qeyd olunan məqam, çox güman ki, filmin redaktordan xali olmasının nəticəsidir.

**8.Bədii məziyyətlər**

Filmin bədii məziyyətlərini gözdən keçirərkən diqqət çəkən bəzi sətiraltı, işarəvi təhkiyə üsullarının da şahidi olmaq mümkündür. Vaqif Mustafayev Azərbaycan Prezidentinin Ermənistan rəhbərliyini nəzərdə tutaraq səsləndirdiyi "Bir il bundan əvvəl o, "Qarabağ Ermənistandır və nöqtə" deməklə bütün danışıqlar prosesinə zərbə vurdu, onu mənasız etdi" [12, 2020, s.2] sitatının vizual həllini verərək, real tarixə söykənən yallı ifası ilə Azərbaycanın öz əzəli torpaqlarını işğaldan azad etməsini bir epizodda lakonik formada vizuallaşdırır.

Vaqif Mustafayev öz əsərində iki xalqa əbədi qonşuluq reallığında doğma ailə kimi bir yaşamağı təklif edir. Baş həkim Urfanın öz-özünə səsləndirib boşluğa ünvanladığı "Erkən nikah, gec uşaq" ifadəsi isə bu birliyin bəhrəsinin çox gec olacağına incə işarə verir. Mamikonun gətirdiyi zərfin üstündə "Azərbaycan" və "Ermənistan" ifadələri arasında ingiliscə "Qarabağ Azərbaycandır" yazılması düşmənə ironik "məğlubiyyət müjdəsi"dir. Rejissor qəhrəmanlarını məzhəkə obyektinə çevirməklə əks effektə nail olur, həqiqətə güzgü tutaraq, tamaşaçını düşünməyə vadar edir. Məsələn, Mişikin əyninə böyük olan pencək – epizodun ardında Vaqarşakın "mümkünsüz" adlandırdığı böyük iddialara düşən ermənilərin metaforik obrazıdır.

Erməni əsgərin dilindən "Qarabağ Azərbaycandır" ifadəsinin məntiq çərçivəsində səslənməsi, başlanğıcda "Döyüşkən erməni ruhunu heç zaman öldürmək olmaz" replikasını dilə gətirən qəhrəmanı film boyu qəribə təsadüf nəticəsində bu ruhun yerini pasifist düşüncələrə verməsi, hətta azərbaycanlı psixiatrdan dostluq rəmzi kimi Azərbaycan və Ermənistan bayraqları xahiş etməsi, növbəti epizodlarda artıq onların masa üzərində görünməsi islaholunma cəhətdən hadisələrin vizual inkişafındakı ardıcıl elementləri təqdim edir.

İlk baxışdan neytral dekor təsiri bağışlasa da, Urfanla arvadının yatağı üzərində Qarabağ münaqişəsinin kökündə dayanan ölkənin indiki rəhbərinin abstrakt rəsminin asılması "Hər şey yaxşılığa doğru" filminin anten quraşdırılan məlum epizodundakı fenomenal mesajı tamaşaçıya təkrarən verir. Sonra Urfanın simasında azərbaycanlının qalxıb siyasi portretdən uzaq bir küncə, kitablarla əhatə olunmuş yatağa keçməsi – Azərbaycanın öz tarixinə, öz həqiqətinə sığınmasını simvolizə edir. Lakin Ruzannanın şəxsində erməni hələ də həmin rəsmin altında uzanılı qalıb. Ruzanna yalnız Urfan kimi öz hücrəsini tərk edərsə həqiqətə tapına bilər. Atasının "Mənim kar qızımı yuxudan oyat" çağırışdan sonra onu yalnız azərbaycanlının ayılda bilməsi ermənini həmin yataqdan qopara, bununla da məlum rəsmin əhatə və təsir dairəsindən çıxara bilir. Başqa bir səhnədə rejissor yenidən Rusiya amilinə toxunuş edir. Vaçiki milliyyətcə rus olan baş tibb bacısı Tatanın (Tatyana Kovalyova; aktrisa Sevinc Əliyeva) xilas etməsi bu xalqın təcavüzkar siyasətinə alternativ kimi təqdim olunur. Elə Tatanın yaxşı insan olduğuna dair fikir səsləndiriləndə onun "hərdən" deyə cavab verməsi tibb bacısının timsalında Rusiyanın münaqişə müstəvisində dəyişkən simasını ortaya qoyur. Təəssüflər olsun ki, Vaqif Mustafayevin bu təkrarsız bədii paralelləri bugünədək peşəkar tənqidçilərdən, jurnalistlərdən tutmuş sıravi tamaşaçıyadək hər kəsin diqqətindən yayınıb.

Sayat Novanın erməni aşığı ola-ola erməncə oxumama prinsipiallığı, qəlbən həm erməni, həm azərbaycanlı, həm də gürcü olduğunu dilə gətirməsi, bununla qəlbinin çiçəkləndiyinə vurğu etməsi Qafqazda tam birlik və sülhün mümkünlüyünə ümidin uğurlu bədii ifadəsi, onun "Bu zənglər sən ağıllanmayana qədər həyəcanla çalacaq" nidası isə Azərbaycanın ideoloji qətiyyətinin, sarsılmaz iradəsinin ekranda əksidir.

Azərbaycanın müharibədə qələbə çalma xəbəri gənclərin zəfər sevinci ilə yanaşı, filmin qəhrəmanlarının müxtəlif reaksiyalarında öz əksini tapır. Ruzanna bu xəbərə ağlayır. Bunun sevinc, yoxsa kədər göz yaşı olması erməni qəhrəmanın özü üçün də sirr qalır. Rejissor bu epizodla həm xəstə təfəkkürlü ermənilərin daxilində əslində həqiqət, insanlıq amilinin olduğunu, bunun yalnız müəyyən çoxqatlı mürəkkəb situasiyalarda ani üzə çıxdığını çatdırır, həm də erməni işğalçılarının Azərbaycanın ayaqları altına düşüb təslim olduqlarını bədii şəkildə göstərir.

"Həyat, deyəsən, gözəldir" filmində qana qəltan olmuş sahibsiz ayağın kimə məxsusluğunun axtarılması, düşməni göydə haqlayan partlayış nəticəsində erməni əsgərinin tüstü dalğası içində "buxarlanması", başını divara vuran Xaçikin musiqi duyumunun olmadığına işarə, tabutun yelləncəklə eyniləşdirilməsi ekran əsərində qara yumorun dərəcəsini müəyyən edir. Reallıqla irreallığın, gerçəkliklə yuxunun bir-birinə keçidinə edilən cəhdləri, qəhrəmanların konkret vəziyyətlərdəki dialoq tərzini, həqiqi və xəyali ünsiyyətini isə müəllifin sürreal təmayülləri hesab etmək olar.

**9.Yaradıcı heyətin peşəkarlığı**

Ekran əsərinin uğurunda əsas yaradıcı heyətin də əməyi az deyil. Quruluşçu operator Orxan Abbasovun görüntülərindəki rakurs əlvanlığı, kölgələrin süzülən işıqlarla qarşılaşdırılması ekranda fərdi təsvir üslubu yaradır. Gecə yağışının divarda estetik əksi, güzgü vasitəsilə aldadıcı manevrin ustalıqla icrası, təsvirin müxtəlif bucaqlarında dərinliyin peşəkarlıqla əldə olunması O.Abbasovun görüntüyə yüksək səviyyədə hakimliyinin göstəricisidir. Uğurlu kompozisiya həlli və tamaşaçıda reallıq hissinin yaradılması baxımından rəssam Quram Navrozaşvilinin quruluşçu operatorla əməkdaşlığı səmərəli nəticə vermişdir. Bəstəkar Tural Məmmədlinin etnosimfonik məzmunlu musiqisi, xüsusilə, final epizodunda süjetin emosional qatını tamamlayaraq nüfuzedici təsir bağışlayır, günəş təsvirinə üzvi şəkildə bağlanaraq qəhrəmanın ümid və sabaha inamını ifadə edir.

**10.Kassa gəlirindən məhrumluq**

Filmin Azərbaycan tamaşaçısına gec təqdim olunması onun pirat nüsxələrinin hansısa yolla insanlar arasında süni şəkildə yayılmasına səbəb oldu. Bu faktın özü yerli tamaşaçının son illər peşəkar kinematoqrafiya əsərinə aclığının, İkinci Qarabağ müharibəsinin ekranda əksinə, gerçək döyüş filminə yaxşı mənada hərisliyinin bariz nümunəsi idi. Eyni zamanda filmin dünya premyerasının təşkil olunduğu Türkiyənin Bursa şəhərində "Dədə Qorqud" ("Qorqud Ata") Türk Dünyası Film Festivalında nümayişi zamanı fraqmentlərinin ekrandan çəkilərək sosial şəbəkələrdə yerləşdirilməsi məqamı da baş vermişdi. İzləyicinin həqiqətini qəbul etməmək mümkün deyil. Böyük tamaşaçı marağından xəbər verən hər iki məqam bir tərəfdən filmə marağı artırdısa, digər tərəfdən kassa gəlirinə ciddi zərbə vurdu. Sosial marağa əsaslansaq, filmin kinoteatrlarda görünməmiş axına səbəb olacağı və özündən əvvəlki kassa rekordlarını yeniləyəcəyi şübhə doğurmurdu. Bunu ona görə əminliklə demək olar ki, cəmiyyətdə bu filmin intizarında dayanan böyük bir izdiham vardı və bir il müddətində onlar məcburən gözləmə mövqeyində qaldılar. Azərbaycanda premyera tarixinin yanlış zamana hesablanması, aidiyyəti qurumların yayım barədə ləng qərar verməsi nəticəsində kino sənayemizin hava və su kimi ehtiyacı olduğu və ən əsası, istehsaldan özünün qazana biləcəyi yüksək maddi gəlir itkisinə gətirib çıxardı. Az tammetrajlı bədii film istehsalı olan mühitdə ikinci belə nümunənin bir də nə vaxt ərsəyə gələcəyi bəlli deyil.

**11.Nəticə**

Kinorejissor Vaqif Mustafayev bu filmə görə bir neçə il əvvəl Türkiyənin Bursa şəhərində "Dədə Qorqud" ("Qorqud Ata") Türk Dünyası Film Festivalında Türk dünyasının ən yaxşı rejissoru mükafatına layiq görülmüşdü [13, 2022, s.8]. Yazını bitirmək üzrə ikən "Həyat, deyəsən, gözəldir" bədii filmi 28 dekabr 2025-ci il tarixində rekord sayda – 6 nominasiyada (Ən yaxşı bədii film, Ən yaxşı təsvir rejissoru, Ən yaxşı aktyor, Ən yaxşı

montaj, Ən yaxşı qrim rəssamı, Ən yaxşı səs rejissoru) Azərbaycan Kino Akademiyasının "Qızıl Pəri" mükafatına layiq görüldü. Bu isə filmin uğurlarının hələ də davam etdiyindən xəbər verir.

## 12.REFERENCES


**1.** Mammadov, M. (1983). *His Art Star*. Baku: Ishiq. (in Azerbaijani)
**2.** Aslanli, A. (2022, Sep.). Interview with V. Mustafayev: Life seems beautiful. *Fokus*, 09/2022, № 11. (in Azerbaijani)
**3.** Raizman, Y. (1959). *"Selection of an actor for a role". Mosfilm. Articles, publications, visual materials. Vol. 1. Work on the film*. Moscow: Iskusstvo. (in Russian)
**4.** Orwell, G. (2023). *Down and Out in Paris and London*. Istanbul: MK Publications. (in English)
**5.** Huseynov, E. (2022, Nov. 16). Toward the light!.. *525th Newspaper*. (in Azerbaijani)
**6.** Tumanyan, O. (1977). *Selected Prose: Stories, Tales, Articles*. Yerevan: Sovetakan grokh. (in Russian)
**7.** Dolin, A. (2025, Jan. 9). On the main masterpieces of world cinema. *Radio Dolin*. (in Russian)
**8.** Mustafayev, V. (2018). *Master's Lesson (Textbook for creative youth)*. Baku: ADMİU. (in Azerbaijani)
**9.** Mammadov, R., & Heyderov, E. (2023, Aug. 30). Creative evening on the occasion of Vaqif Mustafayev's 70th anniversary. *AzTV News*, Azerbaijan Television. (in Azerbaijani)
**10.** Azeri, L. (2023, Aug. 30). Fortunately, I became a director… (Interview with V. Mustafayev). *Culture*. (in Azerbaijani)
**11.** Mammadov, N. (2011). *History of the city of Khankendi, Azerbaijan*. Baku: Tahsil. (in Azerbaijani)
**12.** President Ilham Aliyev. (2020, Oct. 6). President Ilham Aliyev's Address to the People: We are right, we will triumph! *Azerbaycan*. (in Azerbaijani)
**13.** Awards of the 2nd Dede Gorgud Turkish World Film Festival in Bursa presented. (2022, Nov. 11). *Madaniyyat*. (in Azerbaijani)


## ƏDƏBİYYAT


**1.** Məmmədov, M. (1983). *Onun sənət ulduzu*. Bakı: İşıq.
**2.** Aslanlı, A. (2022, Sep.). V. Mustafayevin müsahibəsi: Həyat, deyəsən, gözəldir. *Fokus*, 09/2022, № 11.
**3.** Райзман, Ю. (1959). *«Выбор актера на роль». «Мосфильм». Статьи, публикации, изобразительные материалы. Выпуск 1. Работа над фильмом*. Москва: Искусство.
**4.** Orwell, G. (2023). *Down and Out in Paris and London*. Istanbul: MK Publications.
**5.** Hüseynov, Ə. (2022, Nov. 16). İşığa doğru!.. *525-ci qəzet*.
**6.** Туманян, О. (1977). *Избранная проза: Рассказы, сказки, статьи*. Ереван: Советакан грох.
**7.** Долин, А. (2025, Jan. 9). О главных шедеврах мирового кино. *Радио Долин*.
**8.** Mustafayev, V. (2018). *Ustad dərsi (yaradıcı gənclər üçün dərs vəsaiti)*. Bakı: ADMİU.
**9.** Məmmədov, R., & Heydərov, E. (2023, Aug. 30). Vaqif Mustafayevin 70 illik yubileyi münasibətilə yaradıcılıq gecəsi. *AzTV xəbər*, Azərbaycan Televiziyası.
**10.** Azəri, L. (2023, Aug. 30). Nə yaxşı ki, rejissor olmuşam… (V. Mustafayevin müsahibəsi). *Mədəniyyət*.
**11.** Məmmədov, N. (2011). *Azərbaycanın Xankəndi şəhərinin tarixi*. Bakı: Təhsil.

**12.** Prezident İlham Əliyev (2020, Oct. 6). Prezident İlham Əliyevin Xalqa müraciət: Biz haqlıyıq, biz zəfər çalacağıq! *Azərbaycan*.

**13.** Bursada II Dədə Qorqud Türk Dünyası Film Festivalının mükafatları təqdim olunub. (2022, Nov. 11). *Mədəniyyət*.